# Türkiyə Azərbaycanın yanındadır

***Qardaş Türkiyə Vətən müharibəsində tarixi qələbəmizə, möhtəşəm zəfərimizə ürəkdən sevindi. Dost ölkə xalqımızın 30 illik arzusuna çatmasında, əzəli-əbədi torpaqlarına qovuşmasında siyasi, mənəvi dəstək göstərdi. Qırx dörd günün hər birində yanımızda oldu, "Can Azərbaycan", "Bir millət, iki dövlət" deyimləri, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın "Biz hər an, hər məsələdə Azərbaycanın yanında olacağıq", "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır", "Azərbaycan bizim qırmızı cizgimizdir" kimi bəyanatları ilə əzizliyini, doğmalığını əməldə, işdə təsdiqlədi.***

Qardaş ölkə Qarabağın işğalı zamanında da Azərbaycanın haqq səsinin beynəlxalq kürsülərdən eşidilməsinə dəstəyini əsirgəmirdi, Prezident Rəcəb Tayyib Ərdoğan çıxışlarında, xüsusilə, "Ermənistanın işğalı altında olan Qarabağ" ifadəsini tez-tez işlədir, bizim olmadığımız yerdə haqq sözümüzü, niyyətimizi dilə gətirirdi. Təbii ki, dost Türkiyənin iştirak etmədiyi hansısa bir platformada bu ədalətli fəaliyyəti də Azərbaycan həyata keçirirdi.

Vətən müharibəsindən sonra isə hər iki dövlətin münasibətləri özünün yeni inkişaf mərhələsinə daxil oldu. Türkiyə işğal dövründə və 44 günlük savaşda Azərbaycanın ərazi bütövlüyünə nail olmasına dəstək verirdisə, tarixi zəfərimizdən sonra ölkəmizin Qarabağda, bölgədə sülh siyasətinin uğurla nəticələnəcəyi üçün yorulmaz səy göstərməyə başladı. Münasibətlərimizin strateji müttəfiqlik səviyyəsinə yüksəlməsi məqsədilə əməli addımlar atdı.

Yeri gəlmişkən, bütün bunlar– Türkiyənin ölkəmizə verdiyi siyasi və diplomatik dəstək, qardaşlıq missiyasını layiqincə yerinə yetirmək, sadəcə, doğmalıq münasibətlərinin ifadəsi deyil, eyni zamanda, qardaş dövlətin doğrunun, haqqın və ədalətin yanında dayanmasının bariz ifadəsidir.

Bəli, qardaş, dost Türkiyə savaş bitəndən indiyədək daim Azərbaycanın yanındadır, hər zaman ölkəmizə siyasi, diplomatik və mənəvi dəstək göstərir.

## Türkiyə Qarabağı Azərbaycanla birgə dirçəldir

Dost dövlət hazırda Qarabağ və Şərqi Zəngəzurun bərpasını da diqqətdə saxlayır. Düşməndən təmizlənən yaşayış sahələrimizin yenidən qurulması üçün ilk müqavilələrin Türkiyə şirkətləri ilə imzalanması da bunun parlaq ifadəsidir.

Türkiyə şirkətlərinin Qarabağın yenidənqurma işlərində səmərəli iştirakından bəhs edən Prezident İlham Əliyev deyib: "Ümumilikdə, Türkiyə şirkətləri Azərbaycanda, təqribən, 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər. Əlbəttə ki, işğaldan azad edilmiş torpaqlarda da bir çox sahələrdə Türkiyə şirkətləri uğurlu fəaliyyət göstərəcəklər".

İndiyədək türk şirkətləri tərəfindən Azərbaycan üçün strateji önəm daşıyan avtomobil yollarının inşasında, eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə magistralın çəkilişində səmərəli fəaliyyət göstərilir. Türkiyə digər infrastruktur layihələrinin icrasında və tarixi abidələrimizin bərpasında da Azərbaycana qardaşlıq köməyini əsirgəmir.

Beləliklə, Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxan dostluq və qardaşlıq münasibətlərinin indiki vəziyyəti bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə, heç bir maneə bu dostluğun, qardaşlığın qarşısını ala, sarsıda bilməz.

Hazırda bu iki ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir, Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs isə bundan yalnız faydalanır.

## Qardaş ölkə yenə də Azərbaycanın yanındadır

Bu gün xalqımız Vətən müharibəsində qazandığı tarixi zəfərlə Zəngilanın işğaldan azad olunmasının ikinci ilini sonsuz qürur hissi ilə qeyd edir. Bu sevinc, fərəh dolu gün həm də ona görə əlamətdardır ki, Şərqi Zəngəzur iqtisadi rayonunda daha bir tarixi hadisə yaşanır. Azərbaycan İkinci Qarabağ savaşından sonra Böyük qayıdışın ilk ünvanı sayılan Zəngilanda bu əzəli-əbədi məkanın ilk hava limanının qapısını da ilk olaraq qardaş ölkənin üzünə açır, Prezident Rəcəb Tayyib Ərdoğanı Şərqi Zəngəzurun bu müqəddəs məkanında salamlayır.

Prezident Rəcəb Tayyib Ərdoğan artıq ikinci dəfədir ki, öz hava gəmisindən işğaldan azad olunmuş torpaqlarımıza enir, xalqımızın dərin sevgisini qazanan Cümhurbaşqanı ikinci dəfədir ki, bu yurda qədəm basır, onun yolunu həsrətlə, intizarla gözləyən doğmaları ilə görüşür.

## Zəngilanın azadlığından sonra yeni həyatı

Rayon azadlığına qovuşandan dərhal sonra burada bərpa-quruculuq layihələrinin icrasına başlandı, tikinti işləri geniş vüsət aldı, yüksək texnologiyaların tətbiqinə start verildi.

Birinci pilot layihə Zəngilanda, Ağalı kəndində həyata keçirildi, 200 evdən ibarət gözəl bir kənd salınaraq, məskunlaşdırıldı. Daha sonra bu yaşayış məntəqəsinin genişləndirilməsi və əlavə 150 evin tikilməsi, o cümlədən, ikimərtəbəli, üçmərtəbəli mənzil tipli binaların inşası nəzərdə tutuldu. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – "ASAN", "DOST", kiçik və orta biznesə dəstək xidmətləri fəaliyyətə başladı. İnfrastrukturun fəaliyyətində "yaşıl enerji"yə üstünlük verildi.



Zəngilanda logistik layihələrin də icrası diqqətdə saxlanıldı. Azad edilmiş torpaqlara həm vətəndaşların gəlmələri, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq Horadiz–Zəngilan–Ağbənd dəmir yolunun inşasına başlanıldı. Strateji əhəmiyyəti ilə seçiləcək, ümumi uzunluğu 124 kilometr və 6 zolaqdan ibarət olacaq Zəngilan–Horadiz avtomobil magistralının təməli qoyuldu.

Bu gün isə mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi üçün Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan şəhər məscidinin əsaslı şəkildə təmiri həyata keçirilir, yaxınlığında isə şəhərin ümumi əhali sayını nəzərə alaraq yeni daha böyük bir məscidin tikintisi aparılır. Həmçinin Zəngilanın mərkəzində İşğal, Zəfər muzeyləri komplekslərinin və Memorial Parkın tikintisi də planlaşdırılır.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**